**2007-ci il oktyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2007-ci il oktyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 noyabr 2007-ci il
№ 2498

**"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair**

**ANLAŞMA MEMORANDUMU**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və

Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi,

Azərbaycan Respublikasının və Almaniya Federativ Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (BMT İDÇK) və bu Konvensiyanın Kioto Protokolunun Tərəfləri olduğunu nəzərə alaraq,

həmçinin, Kioto Protokolunun 12-ci maddəsinin antropogen tullantıların mənbələrinin azaldılması və karbon udulması yolu ilə istilik effekti yaradan qaz tullantılarının azaldılması üzrə Təmiz İnkişaf Mexanizmi (TİM) layihələrinin həyata keçirilməsindən əldə edilən sertifikatlaşdırılmış tullantı qazlarının azalma vahidlərinin ötürülməsini nəzərə alaraq,

TİM layihələrini Qəbul edən Ölkənin davamlı inkişafına yardım etməsini təsdiqləmək və bu Tərəfin müstəsna hüququ olduğunu qeyd edərək,

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (TK), Kioto Protokolunun 12-ci maddəsi üzrə Tərəflər Görüşündə (TG) və TİM-in İcra Şurasında qəbul edilmiş qərarları, təlimatları, üsul və qaydaları nəzərə alaraq,

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının və Kioto Protokolunun məqsədlərinin həyata keçirilməsi istiqamətində Tərəflərin aşağıdakı şəkildə əməkdaşlıq etmək niyyətini ifadə edərək,

## 1. Əməkdaşlığın əhatə dairəsi və vasitələri

Tərəflər razılaşmışlar ki:

1. Bu Anlaşma Memorandumu üzrə əməkdaşlıq xüsusilə özəl sektorda TİM layihələrinin icrasına yardım məqsədilə Memorandum çərçivəsində şəraitin sonrakı inkişafını və təkmilləşməsini əhatə edəcək.

2. TİM və TİM layihələri üzrə əməkdaşlıq xüsusilə aşağıdakıları əhatə etməlidir:

a) TİM layihələrində iştiraka dair müvafiq tələblərin razılaşdırılması üzrə məlumat mübadiləsi;

b) layihə imkanları, xüsusilə bərpa olunan enerji və enerji səmərəliliyi layihələri, layihə maliyyələşdirilməsi və maliyyələşdirmə şərtləri, habelə dövlət və özəl müəssisələrin məlumatlandırılması sahəsində informasiya ötürülməsinin inkişafı sahəsində məlumat mübadiləsi;

c) Tərəflərin TİM layihələri üçün tətbiq etdiyi bəyanilmə qaydaları və təlimatları da daxil olmaqla layihələrin həyata keçirilməsinin qiymətləndirilməsi üzrə məlumat və fikir mübadiləsi; ikitərəfli TİM layihə fəaliyyətlərinə dair məlumatlar elektron rabitə vasitəsilə həyata keçirilir;

d) Tullantıların baza səviyyəsinin müəyyən edilməsi və Əlavəlik şərtinin göstərilməsi və TİM layihələri olduğu halda əldə edilən istilik effekti yaradan qaz tullantılarının azaldılması, monitorinqi və yoxlanılması üçün metodologiyalar və mexanizmlər üzrə məlumat və fikir mübadiləsi; ikitərəfli TİM layihə fəaliyyətlərinə dair məlumatlar elektron rabitə vasitəsilə həyata keçirilir;

e) TİM layihələrinin, Kiçik Həcmli Layihələr də daxil olmaqla, layihə dövrü tələblərinə cavab verməsi üçün birgə müəyyən edilmiş layihə fəaliyyətlərinin inkişafı. Birgə müəyyən edilmiş layihə fəaliyyətləri hər iki Tərəfin rəsmi məktubları vasitəsilə təsdiq edilməlidir;

f) layihə fəaliyyətinin TİM layihələri kimi bəyanilməsini müəyyən etmək məqsədilə təyin edilmiş Milli Səlahiyyətli Orqanlara (MSO) təqdim olunan layihə ideyalarının inkişaf etdirilməsi. Hər iki MSO-nun qərarları müraciət edən təşkilata yazılı şəkildə təqdim edilməlidir;

g). Hər iki Tərəfdən layihənin TİM-in İcra Şurasına göndərilməzdən əvvəl tam TİM dövrü vasitəsilə təsdiq edilməsini MSO dəstəkləməlidir. Hər iki Tərəf fikir mübadiləsi etməli və bu yönümdə həyata keçiriləcək fəaliyyət barədə digərini məlumatlandırmalıdır.

## II. Əməkdaşlığın ümumi prinsipləri, qaydaları və strukturu

Bu əməkdaşlıq çərçivəsində Tərəflər aşağıdakıları həyata keçirmək niyyətindədirlər:

1. müvafiq milli qanunvericiliyə uyğun olaraq, zəruri məxfiliyi saxlamaqla Azərbaycan Respublikası və Almaniya Federativ Respublikasının hüquqi təşkilatları arasında lisenziya sazişi, birgə müəssisələr yaradılması və işgüzar sövdələşmələrə dair məlumat mübadiləsinə kömək etmək;

2. Bu Anlaşma Memorandumu üzrə əməkdaşlıq çərçivəsində yerinə yetirilən Layihə fəaliyyətləri və digər fəaliyyətlərin inkişafına dair müntəzəm olaraq məsləhətlərin verilməsi və layihə fəaliyyətinə cəlb olunan milli təşkilatların məlumatlandırılması;

3. TİM layihələrinin inkişaf proseslərinin sürətləndirilməsi və xüsusilə validasiya mərhələsini keçmiş Layihə Sənədləri üzrə uyğun qərarların qəbul edilməsinin ən geci altı həftə ərzində başa çatdırılmasına səy göstərmək;

4. Anlaşma Memorandumu imzalandıqdan sonra hər iki Tərəf qarşılıqlı olaraq MSO üzrə Əlaqələndiricilər haqqında məktub mübadiləsi vasitəsilə məlumat verməlidir.

## III. Mübahisəli məsələlər

Hər iki Tərəf bu Anlaşma Memorandumu çərçivəsində yaranmış istənilən mübahisəli məsələni qarşılıqlı məsləhətləşmələr vasitəsilə həll etmək niyyətindədirlər.

## IV. Düzəlişlər

Tərəflər razılaşmışlar ki:

1. Bu Memoranduma istənilən vaxtda qarşılıqlı razılaşdırılmış şəkildə yazılı düzəlişlər edilə bilər;

2. Konvensiyanın TK və TG-nin yeni qərarlarından irəli gələn öhdəlikləri, milli iqlim siyasəti strategiyasında, həmçinin TİM layihələrinin qiymətləndirilməsi və təsdiqi qaydalarında və ya TİM layihələrinin həyata keçirilməsi təcrübəsində meydana çıxan dəyişiklikləri nəzərə almaq zərurəti yaranarsa, bu Memoranduma yenidən baxıla bilər.

## V. Əməkdaşlığın müddəti

Tərəflər razılaşmışlar ki:

1. Bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq onun imzalanması tarixindən başlanmalıdır;

2. Bir Tərəfin digər Tərəfə bu Anlaşma Memorandumunu ləğv etmək arzusunda olması haqqında altı ay əvvəl yazılı şəkildə məlumat verməsinə qədər əməkdaşlıq davam etdirilir;

3. Anlaşma Memorandumunun ləğv edilməsi artıq həyata keçirilmişdir və ya hər iki Tərəfin təsdiqlədiyi TİM layihə fəaliyyətlərinə təsir göstərməməlidir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2007-ci il 4 oktyabr tarixində Azərbaycan, alman və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından** | **Almaniya Federativ Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi adından** |
| **Hüseynqulu BAĞIROV** | **Astrid KLUG** |